*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 oktyabr 2017-ci il № 80 (2197) Qiymət 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz

### İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşü keçirilib




*Oktyabrın 20-də İstanbulda inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında IX Zirvə görüşü keçirilib.*

*AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə xüsusi qonaq qismində Zirvə görüşündə iştirak edib.*

Zirvə görüşü müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başladı.

İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının - D-8-in baş katibi Seyid Ali-Mohammad Musəvi Zirvə görüşünü açıq elan edərək tədbirin əhəmiyyətindən danışdı.

D-8 təşkilatının hazırkı sədri, Pakistanın Baş naziri Şahid Xaqan Abbasi qurumun müasir dövrdə fəaliyyətinin daha da genişləndirilməsində üzv ölkələrin səylərinin gücləndirilməsinin vacibliyini vurğuladı. Qeyd etdi ki, Pakistan D-8 təşkilatına sədrliyi dövründə bu qurumun möhkəmlənməsinə və inkişafına çalışıb. Məhz bu dövrdə D-8 BMT-də müşahidəçi statusu əldə edərək beynəlxalq səviyyədə mövqeyini gücləndirib. Pakistanın Baş naziri dedi ki, qurumun üzvləri 20 il ərzində iqtisadiyyat, ticarət, nəqliyyat, turizm və digər sahələrdə əlaqələri inkişaf etdiriblər.

Baş nazir Şahid Xaqan Abbasi D-8 təşkilatına sədrliyin Pakistandan Türkiyəyə keçdiyini elan etdi.

Təşkilatın yeni sədri, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında üç qitədə yerləşən ölkələri əhatə edən D-8-in son 20 ildə fəaliyyətinin uğurlu olduğunu vurğulayaraq, dünyada baş verən gərginliklər fonunda Zirvə görüşünün keçirilməsinin önəmini qeyd etdi. Son illər müsəlmanların yaşadıqları bölgələrdə baş verən münaqişələrin, terrorizmin, təbii fəlakətlərin ciddi fəsadlarla nəticələndiyini deyən Türkiyə Prezidenti təəssüflə bildirdi ki, qlobal ədalətsizlik azalmaq əvəzinə, daha da artır. Dünyada İslamla terrorizmin əlaqələndirilməsi cəhdlərinin, islamofobiyanın və ksenofobiyanın artdığını, miqrant böhranının dərinləşdiyini bildirən Türkiyə Prezidenti dedi ki, D-8 ölkələri dünyada çox az ölkənin sahib olduğu gənc və dinamik artan əhaliyə, zəngin təbii sərvətlərə, sürətli inkişafa malikdir. Prezident Rəcəb Tayyib Ərdoğan üzv ölkələrin bu potensialından tam səmərəli istifadə olunması nəticəsində qarşılıqlı ticarət dövriyyəsinin hazırkı 100 milyard dollardan qısa müddətdə 500 milyard dollara çatdırıla biləcəyini qeyd etdi. Türkiyə Prezidenti iqtisadiyyat, ticarət, nəqliyyat, müdafiə sənayesi, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayaraq D-8 üzvlərinin sayının artırılmasının, qarşılıqlı ticarətin milli valyutalarla aparılmasının təşkilatın daha da güclənməsinə imkan yarada biləcəyini bildirdi.

(Ardı 2-ci səhifədə)



"Biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu və ulu öndər Heydər Əliyevin siyasətini görürük"

4-5-ci səhifədə



İqtisadi inkişaf, uğurlu islahatlar, güclü ordu

6-cı səhifədə



"El bilir ki, sən mənimsən..."

7-ci səhifədə



Məktəblilərin iştirakı ilə hərbi hissədə tədbir keçirilib

8-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz

**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycan Prezidenti İlham Əliyev D-8 IX Zirvə görüşündə çıxış etdi.

- Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan.

Hörmətli baş katib.

Xanımlar və cənablar.

İlk növbədə, əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşünə dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm.

Azərbaycan D-8-in üzvü olmamasına baxmayaraq, Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanı bu tədbirə dəvət edib. Mən buna görə öz qardaşıma dərin təşəkkürümü bildirirəm.

2015-ci ilin noyabr ayında "Böyük iyirmilər"in Zirvə görüşü Türkiyənin Antalya şəhərində keçirilib. Türkiyə bu görüşə qrupa üzv olmayan yalnız bir ölkəni xüsusi qonaq kimi dəvət edə bilərdi və Prezident Rəcəb Tayyib Ərdoğan bu tədbirə Azərbaycanı dəvət etmişdi. Bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun bariz nümunəsidir.

Hörmətli görüş iştirakçıları, mən sizin diqqətinizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək istəyirəm. Ermənistan 25 ildən artıqdır ki, Azərbaycanın tarixi torpaqlarını - Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal edib. Həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. 1992-ci ildə Ermənistan Xocalı soyqırımını




törədib. Bu hərbi cinayət nəticəsində 613 dinc azərbaycanlı qətlə yetirilib, onlardan 106-sı qadın və 63-ü uşaqdır. Minlərlə insan itkin düşüb və yaralanıb. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və azərbaycanlı mülki əhaliyə qarşı hərbi cinayətlərini davam etdirir.

Ötən ilin aprelində təmas xəttində Ermənistanın silahlı hücumu nəticəsində mülki şəxslər və hərbçilər həlak olub. Yüzlərlə yaşayış evi dağıdılıb. Azərbaycan Ermənistanın bu təxribatının qarşısını qətiyyətlə aldı, ordumuz torpaqlarımızın bir hissəsini erməni işğalçılarından azad etdi. Bundan sonra Ermənistan tərəfindən tamamilə dağıdılmış Cocuq Mərcanlı qəsəbəsi yenidən quruldu. 150 evdən ibarət bu qəsəbədə məktəb, tibb məntəqəsi və məscid tikildi. Bu məscid ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəridir.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək ki, onun əzəli torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaq.

Hörmətli görüş iştirakçıları, Azərbaycan İslam həmrəyliyinə xüsusi əhəmiyyət verir və öz töhfəsini verir. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub. Eyni zamanda, bu il Azərbaycanda 54 müsəlman ölkəsindən gələn 3 minə yaxın idmançının iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunları keçirilib. Biz bu gün dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Özünü müsəlman ölkələrinin dostu kimi qələmə verməyə çalışan Ermənistan Dağlıq Qarabağ və ətraf bölgələrdə məscidləri və dini abidələri dağıdıb. Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz.

İki gün əvvəl Azərbaycan müstəqilliyinin bərpasının 26-cı ildönümünü qeyd edib. Qısa müddət ərzində ölkəmiz uğurlu inkişaf yolu keçmişdir. 2004-cü ildən başlayaraq iqtisadiyyatımız 3 dəfədən çox artmış, 2 milyona yaxın iş yeri açılmışdır. Yoxsulluq 5 faizə düşmüşdür. Savadlılıq 100 faizə yaxındır. Valyuta ehtiyatlarımız ölkənin ümumi daxili məhsuluna bərabərdir. Xarici dövlət borcu ümumi daxili məhsulun 20 faizindən azdır. Azərbaycanın bu uğurları beynəlxalq təşkilatlar tərəfindən də qeyd olunur. Davos İqtisadi Forumunun iqtisadiyyatın rəqabətqabiliyyətliliyi üzrə builki hesabatında Azərbaycan 35-ci yeri tutub.

Azərbaycan beynəlxalq miqyaslı layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Bu gün biz tərəfdaşlarımızla birlikdə "Cənub Qaz Dəhlizi" layihəsini icra edirik. Bu, dünyanın ən böyük infrastruktur layihələrindən biridir. Cənub Qaz Dəhlizinin əsas hissəsi olan TANAP qaz kəməri üzrə saziş 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında İstanbul şəhərində imzalanmışdır və bu kəmər gələn il istifadəyə veriləcəkdir.

Tezliklə rəsmi açılışı olacaq Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiya arasında ən qısa yol olacaqdır. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasına böyük sərmayələr qoyur. Bu nəqliyyat dəhlizləri Avrasiyanın iqtisadi inkişafı üçün yeni imkanlar açacaqdır. Diqqətinizə görə minnətdaram.



*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Hava Hücumundan Müdafiə (HHM) qoşunlarının yeni inşa edilmiş "N" hərbi hissəsinin açılışında iştirak edərək hərbi qulluqçular üçün yaradılmış şəraitlə tanış olub.*

# HHM qoşunlarının növbəti hərbi hissəsi istifadəyə verilib

## Yeni zenit-raket sistemlərinin döyüş hazırlığı yoxlanılıb

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi hissənin qərargahı, əsgər yataqxanası, yeməkxana, tibb məntəqəsi, sıra meydanı, idman şəhərciyi, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Sonra Müdafiə naziri döyüş idarəetmə məntəqəsinə gələrək orada quraşdırılmış çoxməqsədli radiolokasiya stansiyaları, atıcı qurğular və digər döyüş vasitələrinin təyinatı, tərkibi, eləcə də taktiki-texniki xassələri ilə maraqlanıb.

Müdafiə nazirinə məruzə edilib ki, hərbi hissənin sərəncamında olan ən müasir silah və döyüş texnikası aerodinamik hədəflərin və ballistik raketlərin, eləcə də bütün növ digər hava hədəflərinin aşkarlanması, uçuş parametrlərinin təyin edilməsi və müxtəlif manevrlər şəraitində məhv edilməsi imkanına malikdir.

Peşəkar bacarıq və bilik nümayiş etdirən şəxsi heyətin döyüş hazırlığını yüksək qiymətləndirən Müdafiə naziri HHQ-nin komandanlığına müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ermənistanın təxribatları barədə məlumatlandırılıb

*Oktyabrın 23-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Avropa İttifaqının (Aİ) ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri səfir Kestutis Yankauskas ilə görüşüb.*



Səfiri ölkəmizdə fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafı istiqamətində uğurlar arzulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hazırkı vəziyyətə dair məsələlərin müzakirə edildiyi görüşdə general-polkovnik Zakir Həsənov Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərinin 20 ildən artıq müddətdə Ermənistanın işğalı altında olduğunu, bunun nəticəsində bir milyondan çox insanın didərgin düşdüyünü və qarşı tərəfin cəbhədə vəziyyəti gərginləşdirmək cəhdlərini qonağın diqqətinə çatdırıb.

Müdafiə naziri bildirib ki, Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində dinc sakinlər və hərbi qulluqçuların həyatlarına təhlükə yarandığından münaqişənin həlli yolu onun beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq işğalçı qoşunların Azərbaycan ərazilərdən qeyd-şərtsiz çıxarılmasından ibarətdir.

Səfir K.Yankauskas öz növbəsində bildirib ki, Avropa İttifaqı regionda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin və bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarıdır.

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ermənistanın təxribatı nəticəsində hərbi qulluqçumuz şəhid olub

Oktyabrın 22-də Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Zeynalov Cabbar Firuddin oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbr diləyir!

Son günlər Ermənistan hakimiyyətinin müxtəlif təbəqələrdən olan nümayəndələri, o cümlədən bu ölkənin xarici işlər naziri Edvard Nalbandyan guya Azərbaycan tərəfinin açdığı atəş nəticəsində erməni hərbi qulluqçusunun həlak olması barədə yalan və iftira dolu fikirlər səsləndiriblər. Həlak olan erməni hərbçisinin düşmən ordusunda tüğyan edən cinayətkarlıq nəticəsində öz xidmət yoldaşının açdığı atəşdən öldüyünü təsdiq edən məlumatların yayılması bu iddiaların əsassız olduğunu bir daha sübut edir.

Bu cür üzdəniraq və məsuliyyətsiz bəyanatlar verməklə Ermənistan rəhbərliyi beynəlxalq ictimaiyyət və erməni xalqında qoşunların qarşıdurma xəttindəki vəziyyət barədə yanlış fikir formalaşdırmağa, törətdikləri təxribatlara haqq qazandırmağa və cavabdehlikdən yaxa qurtarmağa cəhd göstərir.

Müdafiə Nazirliyi bildirir ki, cəbhə xəttində baş vermiş düşmən təxribatına görə bütün məsuliyyət Ermənistanın kriminal hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Müdafiə naziri düşmən təxribatlarının qarşısının dərhal və qətiyyətlə alınması ilə əlaqədar qoşunlara tapşırıq verib

*Oktyabrın 21-də Silahlı Qüvvələrin Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*





Müdafiə nazirinin müavinləri, Silahlı Qüvvələrin növləri və qoşun qismləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik və birləşmə komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən hərbi hissələrin komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrin qarşısında qoyduğu tapşırıqları şəxsi heyətə çatdıran nazir cəbhə xəttində yaranmış son vəziyyətin təhlilini apararaq qarşıda duran vəzifələri xüsusi qeyd edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, general-polkovnik Zakir Həsənov hərbi hissələrin, xüsusilə ön xətdə yerləşən bölmələrin döyüş hazırlığı, xidməti döyüş fəaliyyəti, bölmələrin manevr imkanları, qoşunların döyüş qabiliyyətinin artırılması, eləcə də düşmənin təxribatlarının qarşısının dərhal və qətiyyətlə alınması ilə əlaqədar müvafiq tapşırıqları bütün kateqoriyalardan olan komandir və rəis heyətinin diqqətinə bir daha çatdırıb.

# Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi ABŞ-a yola düşüb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov oktyabrın 24-də Vaşinqton şəhərində "Zorakı Ekstremist Təşkilatlarla Mübarizə" mövzusunda Baş Qərargah rəisləri səviyyəsində keçiriləcək görüşdə iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına yola düşüb.

# Azərbaycan ilə İtaliya Müdafiə nazirlikləri arasında qərargah danışıqları keçirilib

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və İtaliya Respublikası Müdafiə Nazirliyi arasında 2017-ci il üçün ikitərəfli əməkdaşlıq planı"na uyğun olaraq Bakı şəhərində Azərbaycan və İtaliya Müdafiə nazirlikləri arasında qərargah danışıqları keçirilib.

Danışıqlar zamanı ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, hərbi təlim və təhsil üzrə əməkdaşlıq fəaliyyətləri, eləcə də regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham ƏLİYEV:

# "Biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu və ulu öndər Heydər Əliyevin siyasətini görürük"

*Horadizdə Müdafiə Nazirliyi və Füzuli rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Horadizə şəhər statusu verilməsinin 10 illiyi" adlı kütləvi vətənpərvərlik tədbiri keçirilib.*





Payızdı...

Saralmış yarpaqlar budağından üzülür. Hələ yaşıllığını itirməmiş yarpaqların budağından üzüldüyünü görüncə ürəyim üzülür. Bu üzülmə, torpaqla belə ünsiyyət təbiətin bəşərə çatdırmaq istədiyi fəlsəfədimi? - budağından bərk yapışmayana geriyə dönüş yoxdu. El-obasına, yurduna bağlılar, ruhu ocağının, yurdunun pərvanəsi olanlar bu fəlsəfənin mahiyyətini ömür ülgüsü bilir. Yerişi yeyinləri Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq Müdafiə Nazirliyi və Füzuli rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən kütləvi vətənpərvərlik tədbirinə ("Horadizə şəhər statusu verilməsinin 10 illiyi". Ssenari müəllifi və rejissoru Əməkdar İncəsənət Xadimi, Prezident təqaüdçüsü Abdulla Qurbani) bu dərk gətirib.

Milli Məclisin deputatları, Prezident Administrasiyasının, Müdafiə Nazirliyinin və hərbi birləşmənin nümayəndələri rayon icra hakimiyyətinin işçiləri ulu öndər Heydər Əliyevin abidəsi önünə tər güllər qoyurlar. Böyük tarixi şəxsiyyətin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilir. Gəncə Qarnizonu Zabitlər Evinin orkestri Dövlət himnimizi ifa edir...

Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev çıxışında qeyd edir ki, bu tədbir hamını Böyük Qələbəyə daha möhtəşəm kökləyəcək. Füzulililər Ali Baş Komandanın əmrini gözləyirlər. O ərazilərdə də bu miqyaslı quruculuq işləri aparılacaq. Xalq həmin günün intizarındadı.

80-90 yaşlı babanı Heydər Əliyevin azad etdiyi, İlham Əliyevin şəhər statusu verdiyi Horadizin 10 illik tədbirinə gətirən nədi? - yurd həsrəti gətirib, ata yurduna mehr-ülfət gətirib...

Tək ayağı üstə dayanıb gözlərini nizami sırayla düzülmüş əsgərlərdən çəkməyən, çəkə bilməyən atanı bura gətirən nədi? - ordumuzun qüdrətinə inam gətirib, işğaldan azad edəcəyimiz torpaqlara qovuşduracaq uğur niyyəti gətirib...

İki nəvəsinin əhatəsində nənəni bura yurd, doğma ocaq sıxıntıları yaşayanlarımıza ruh yaxınlığı gətirib; bu həsrət hamımızın həsrətidi, hamının ömründə yaşayan həsrətdi...

Əl ağacına mətərislənən ağsaqqal əlini gözünün üstünə qoyub uzaqlara baxır. O uzaqlar onun da könlündən iraq olmayıb; həsrətinin ünvanı olan o uzaqlarda sönmüş ocaqlar var, uçurulmuş xanimanlar var. Bu həsrətli baxışlar o ellərin də Horadizləşəcəyi günü görmək istəyidi: oralar da işğaldan azad edilsin, abadlaşdırılsın. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu və ulu öndər Heydər Əliyevin siyasətini görürük" fikrinin işığında keçirilən kütləvi vətənpərvərlik tədbiri bu istəyə görədi. Ssenari də, rejissura da bu fikirdən qaynaqlanır...

Horadiz döyüşlərinin iştirakçısı olmuş Müxalib İsmayılovun əsgərlərlə kəlmələşməsini eşidincə ürəyim dağa dönür: "Biz 1994-cü ilin yanvarında Heydər Əliyevin sərkərdəliyiylə Horadiz də daxil olmaqla, 22 kəndi işğaldan azad etdik. Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyiylə bütün ərazilərimizi işğaldan siz azad edəcəksiniz!". Avtomatın qundağını sıxan əsgərlərin baxışları bayaq əl ağacına mətərislənmiş ağsaqqalın baxdığı səmtə yönəlir. Orada Laçın var, Kəlbəcər var, Şuşa var, Ağdam var, Füzuli var, Cəbrayıl var, Qubadlı var, Zəngilan var...

Füzulinun işğal olunmuş kəndlərindən pənah gətirənlərin - Horadizdə məskunlaşanların qəlbindən nələr keçir?

Yaşanılan mənzil ömrün illəridi, ata yurdu - ruhun. Baxışlarda sezilməsi çətin olmayan nisgil də görünür. İnsafsız nisgildi, ata yurduna ad olan həsrət biçimli nisgildi. "Ata yurdumuza qayıdacağıq. Ömrümüzün neçə ilinə ətək sərən Horadizi unutmayacağıq. Bu gözəl şəhəri ata yurdunda xoş xatirələrlə yaşadacağıq..."...

"Kənd Horadizdə anadan olmuşam, qəsəbə Horadizdə boya-başa çatmışam, Horadiz uğrunda döyüşmüşəm, şəhər Horadizdə yaşayıram" - orta yaşlı kişinin kəlmələrində bir sevgi var - doğulduğu kəndə sevgi, boya-başa çatdığı qəsəbəyə sevgi, yaşadığı şəhərə sevgi...

Horadizdə anadan olmuş 8 yaşlı Həmid "Füzulinin Əhmədalılar kəndindənəm..." deyir. “Horadizliyəm” - demir. Nənə-baba söhbəti, nənə-baba qəhəri bu yaşda uşağın yaddaşına məhrəmliklə hopub. Bugünkü tədbir Həmidlərin ata yurduna bağlılığının, sevginin tədbiridi, əsasına mətərislənən ağsaqqalın istəyinin tədbiridi, Horadiz döyüşlərində iştirak etmiş atanın oğullardan umacağının tədbiridi. Ssenaridə bunlar yoxdu, bunlar tədbirin işığından süzülən zərrələrdi, həm də yaşadılmalı zərrələrdi...

Atasının başı üstə bayrağa dönən 2-3 yaşlı uşağın əlində dalğalanan bayrağın yaxın vaxtlarda Horadizə qələbəylə dönəcək əsgərə veriləcəyinə necə inanmayasan? - tədbir bu yaşda uşaqların da düşüncələrinin bürüncəyidi...



Tədbir Horadizin timsalında Böyük Qələbəyə inamın tədbiridi.

Aparıcı - Abdulla Qurbani 1993-cü ilin siyasi və hərbi vəziyyətindən söz açır, o vaxtlar yeni yaradılan, ordu kimi formalaşmamış ordumuzun vahid komandanlıqdan idarə edilmədiyindən, torpaqlarımızın işğalından, xalqın təkidli tələbi ilə böyük tarixi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra istər daxili və xarici siyasətdə, iqtisadiyyatda, istərsə də ordu quruculuğunda inkişafa nail olunduğundan danışır. Onu da qeyd edir ki, Heydər Əliyevin bölgəyə hər gəlişi xalqın da, ordunun da ruhunu özünə qaytardı, Heydər Əliyevin sərkərdəliyiylə Horadiz işğaldan azad olundu.

Aparıcı 1994-cü ilin yanvarını xatırladır, Ulu Öndərin qətiyyətini xatırladır, əsgərlərin Vətənə, sərkərdəyə sədaqətini xatırladır, döyüşləri xatırladır, ... qələbəni - Horadizin, 22 kəndin işğaldan necə azad edildiyini xatırladır. Deyir ki, iki dəfə "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmiş polkovnik Şair Ramaldanovun briqadası təkcə yanvarın 5-də bir gün ərzində düşməndən 3 tank, 1 ədəd "Şturn-S", 6 ədəd top qoşqusu, çoxlu sayda silah və sursat qənimət götürmüşdü. Ağır itkilər verən düşmən hətta öz əsgərlərinin cəsədlərini döyüş meydanında qoyaraq geri çəkilirdi. Əsgərlərimiz döyüşə-döyüşə Horadizə daxil oldu, Horadiz dəmiryol stansiyasını, Xudarəfin körpüsünü ələ keçirdi...

Tədbir iştirakçıları o anları mətləb-mətləb yaşayır. 23 il əvvəlin qələbəylə nəticələnən döyüşləri hər birinin ürəyini coşdurur. O döyüşlərdə qazanılan qələbə Horadizin adına bağlıdı, aprel döyüşlərində qazanılan qələbə Lələtəpənin. O döyüşlərdən sonra, Abdulla Qurbaninin təbirincə desək, Horadiz kül altından yeni görkəmdə dikəldi, aprel döyüşlərindən sonra Cocuq Mərcanlı. Hamının könlündən azad edəcəyimiz şəhərlərdə də, kəndlərdə belə ovqatı daha möhtəşəmliklə yaşayacağımız anlar keçir. O anlar Böyük Qələbə kimi tarixləşəcək. Tədbir bu dönməz inamın işığı kimi izlənilir...

Düşmən Horadizi odlara qalamışdı. İşğaldan azad edilən qəsəbəyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 oktyabr 2007-ci il tarixli sərəncamı ilə şəhər statusu verildi. Bu sərəncam təkcə yaşayış məntəqəsinin yenidən qurulması, abadlaşdırılması, sakinlərin ev-eşiyinə dönüşü deyildi. Bu, həm də inam idi - daş-daş dikəltdiyi doğma ocağından perik düşənlər ata yurduna qayıdacaq! Ev-ev yanacaq işıqlar sevgi, ehtiram işığına dönəcək. Qərinələr, əsrlər ötəcək, o işıq sönməyəcək!..

Qəsəbə yeni yaşam qazandı. Həm də bənzərsiz görkəmdə; şəhər kimi yenidən quruldu. Yeni tarixlə - 23 oktyabr 2007-ci il, yeni görkəmlə - gözəl, gözdoyduran, könül açan, bütün infrastrukturlarıyla gözəllik bircəsidi Horadiz. Biri digərinə doğma baxışlar "Sən ruhumuzun şəhərisən, şəhərim. Yaxın vaxtlarda bir döyüşlə çiliklənəcək qəhərim, şəhərim. Yaxınlarda qələbəylə açılacaq səhərim, şəhərim!" - deyir...

Bu səviyyədə gözəl (bədii dəyər, əhatəli məzmun, informasiyalıq) ssenarinin, ssenarinin açılmasına yönəldilən rejissuranın aşıladığı möhtəşəm mətləb hamının könlünü tellәndirir: Yadlar gərək biləydi ki, ağır olub, ağır olur məhəbbətin, el-obaya sədaqətin, hər tarixi ədalətin qılıncıyla gələn qisas! Bu qılınc Böyük Qələbənin də qılıncıdı! Tədbirin məntiqi yozumu budur. Ssenarinin, rejissuranın qüdrəti budur. Horadiz döyüşlərində iştirak etmiş Şakir Bayramov deyir ki, o tarixi ədalət göy üzünün göylüyünə yayılan Azərbaycan bayrağını Horadizdə 1994-cü ilin yanvarında Azərbaycan əsgərinin qətiyyətiylə, Vətənə məhəbbətiylə salamladı.

**(Ardı 5-ci səhifədə)**

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham ƏLİYEV:

# "Biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu və ulu öndər Heydər Əliyevin siyasətini görürük"

**(Əvvəli 4-cü səhifədə)**

Sinəsinə "Heydər Əliyev uğrunda!" sözləri yazılmış tanklar düşmən üzərinə gedəndə, əsgərlər döyüşü son döyüş bilib irəli atılanda salamladı. Sülh danışıqları baş tutmasa yenə belə döyüşəcəyik.

Horadiz gözəl şəhərdi. "Horadizə şəhər statusu verilməsinin 10 illiyi" tədbiri onu daha da gözəlləşdirib. Bu gözəlliyi gözlərimə köçürməkdəykən baxışlarda gözəl kəlmələri ifadə edən mətləblər görünür: Abdulla Qurbani Horadiz döyüşünün iştirakçılarından bir qrupunu təqdim edir. Zamanında (yanvar, 1994) cavan əsgər-döyüşçü olanların inamlı yerişi indi (oktyabr, 2017) əsgər olanlara sanki deyir: siz üzü Qarabağa gedəndə sıranızda olmağa biz də hazırıq.



Qazilərin istəyini duyanlar bir boy da dikəlir elə bil.

Muğam Mərkəzinin ikinci mərtəbəsində əli silahlı əsgərlər dayanıb. Gözəl rəmzdi, ordunun xalqa münasibətinin timsalı kimi qürurverici rəmzdi: əsgərlər (ordu) xalqı, Vətəni qoruyur...

Horadiz əməliyyatında Şakir Bayramovun tankı Horadizə ilk daxil olub. Şakir Qəsəbə sovetinin binası üzərinə qondarılmış Ermənistan bayrağını götürüb, parçalayıb, atıb, Azərbaycan bayrağını ucaldıb. Həmin bayraq indi Horadiz tarix-diyarşünaslıq muzeyinin eksponatıdı.

Şakir tədbirə həmin bayraqla gəlib. Şakirlə, Şakirin döyüşçü dostları ilə kəlmələşirəm. O döyüşü xatırlayırlar, qürurlanırlar, şəhid olanlara görə qəhərlənirlər. Davamlı qəhər deyil; 23 ilin o üzündə qalmış döyüşün ovqatı yaşarı tarixdi. Yaşadılan tarix yaşatmağa da qadirdi.

"O bayrağı işğaldan azad edəcəyimiz torpaqlarda da dalğalandıracağıq!". Aparıcının bu inamı Horadiz Muğam Mərkəzinin geniş, yamyaşıl həyətini dalğalandırır. "Horadiz halayı"nın (sözləri Abdulla Qurbaninin, musiqisi Azad Zahidindir) müşayiəti ilə, Ağabala Abdullayevin, Leyla Qəhrəmanovanın, Nigar Rəhimovanın, Vüsal Ağayevin ifasında...

"Döyüş maşınının üstdə dayanmış əsgərin əlində dalğalanan bayrağı Cıdır düzündə də görəcəyik", - Şakirin döyüşçü dostu Habil Məmmədov belə deyir. "Oğullarım da - Nicat da, Murad da onların sırasında olacaq..."...

Horadiz işğal olunanda Şakir İmişlidə məskunlaşıb. Qəsəbə Horadiz uğrunda döyüşüb, indi şəhər Horadizdə yaşayır. "Biz qayıtdıq. Bəs hələ də ata yurdu yuxularında gecələyənlər? O torpaqları da azad etməliyik. Ali Baş Komandan əmr etsə, döyüşməyə biz də hazırıq", - qazilər də döyüşçü olmaq niyyətindədi. Necə qürurlanmayasan? Onların sırasında necə olmayasan?!

Milli Məclisin deputatı Elman Nəsirov çıxışında qəhrəmanların - Azərbaycan əsgərinin əhatəsində olduğundan qürurlandığını 1994-cü ilin yanvarında qələbə ilə nəticələnən Horadiz əməliyyatının, 2016-cı ilin aprelində qazanılan zəfərin mənəvi başlanğıcı olduğunu deyir: "Aprel döyüşlərində Azərbaycan əsgəri həm özünün, həm də milli-xəlqi ruhun kimliyini təsdiqlədi...".



Horadizi ümummilli liderimiz Heydər Əliyevə sədaqətin nümunəsi, Azərbaycanın inkişaf göstəricisi kimi dəyərləndirən Milli Məclisin deputatı Bahar Muradova çıxışını Azərbaycan əsgərinə müraciətlə başlayır. Kəlmələr ana öyüdü kimi dinlənir. "Bu 10 ildə Horadiz şəhərini sevə-sevə qurduq, qura-qura sevdik. Sevdiniz-qorudunuz, qorudunuz-sevdiniz".

Azyaşlı uşaqların əllərində dalğalanan bayraqlar millət vəkilinin də diqqətindən yayınmayıbmış: "Siz əsgərlər böyük bayraqlarla yanaşı, o bayraqları da arzuladığımız yüksəkliklərdə dalğalandıracaqsınız...". Millət vəkili ötən il Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən "Vətən üçün hər birimiz bir əsgərik" tədbirinin mahiyyətinə istinadən "Hərə bir əsgərdi..." - deyir...

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev tədbir iştirakçılarına Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini, sayğılarını çatdırır. "Ordu-dövlət-xalq birliyi qələbə deməkdir. Bu birliyin nəyə qadir olduğu 1994-cü ilin yanvarında da, 2016-cı ilin aprelində də təsdiqləndi. Bugünkü tədbiri bu möhtəşəm birliyin təntənəsi kimi izləyirik. Azərbaycan əsgərinin ən güclü silahı yüksək döyüş hazırlığını tamamlayan mənəvi hazırlığıdır. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dediyi "Prezidentin Dağlıq Qarabağ problemi ilə əlaqədar səsləndirdiyi fikir ordumuz üçün tapşırıq, bütün şəxsi heyət üçün əmrdir" fikri bizim xidmət amalımızdır".

General-mayor Rasim Əliyevin "Horadizə ən gözəl, ən təmiz şəhər adı verilə bilər" - qənaəti də ulu öndər Heydər Əliyevin də, İlham Əliyevin də siyasətinə sədaqətin təsdiqi kimi dinlənilir, bəyənilir.

General-mayor Mayis Bərxudarov çıxışında Horadiz əməliyyatı ilə aprel döyüşləri arasında tarixi bağlılıq olduğunu deyir: Hər iki qələbədə Ali Baş Komandanın siyasi dühası, sərkərdəlik məharəti təsdiqlədi ki, yüksək döyüş hazırlığına malik olan ordunun qələbə qazanması hərbi strategiyaya və çevik, elmi baxımdan əsaslandırılmış taktikaya söykəndikdə təmin olunur. Böyük gücə malik olan Azərbaycan Ordusunun bu səviyyədə formalaşmasını təmin edən Ali Baş Komandana sədaqətin, ehtiramın təsdiqi olan bu tədbirin keçirilməsi də qəhrəmanlıq salnaməsidir...



Horadiz döyüşlərinin komandiri olmuş ehtiyatda olan polkovnik Şair Ramaldanov əməliyyata necə hazırlaşıldığından, Ali Baş Komandanın siyasi və hərbi dühasından, qətiyyətindən, əsgərlərin döyüş ruhundan, cəsarətindən, ...danışdıqları, həm də qürurla, sevgilərlə danışdıqları mənə könül xoşluğu verir...

Horadiz ziyalıları adından çıxış edən Müşfiq Həsənov deyir ki, biz horadizlilər Ali Baş Komandanın hər əmrinə hazırıq.

Bu tədbirdə Abdulla Qurbaninin qısa müddətdə nəşr etdirdiyi "Horadiz - timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu və ulu öndər Heydər Əliyevin siyasətini gördüyümüz şəhər" kitab albomu da ictimailəşir - təqdim edilir.

Hər kitab bir tarixdi - tarixi gündə təqdim edilən nəfis tərtibatlı tarixi kitab Horadiz əməliyyatının davamı kimi şəhər statusu verilən şəhər kimi yenidən qurulan qəsəbənin inkişafını tarixin eksponatına çevirir.

Bayram rəssamdı. Ə.Əzimzadə adına rəssamlıq məktəbini, İncəsənət Universitetini bitirib. 1992-ci ildə Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. Mina partlayışından ağır yaralanıb. 1996-cı ildə tərxis olunub. Çəkdiyi əsərlərdə Vətən var, torpaq var, əsgər var. Tədbirdə "Biz qayıtdıq, Mübariz!" tablosunu rayon icra hakimiyyətinə hədiyyə edir; əsər rəssamın qəhrəmanın ruhuna hesabatıdı bəlkə? Tablo yaxın vaxtlarda gerçəkləşəcək bir xəyalın bir təsviridi. - Torpaqlarımız işğaldan azad edilib. Tədbir iştirakçıları aparıcının tabloya münasibətini Vətənin istəyi (tələbi!) bilir: Azərbaycan əsgəri rəssamın tabloda yaratdığı xəyali mənzərəni (görüntünü) gerçəkləşdirəcək...

Horadiz Muğam Mərkəzinin işçisi Habil Məmmədov deyir ki, qəsəbə işğal olunanda Saatlıda məskunlaşdıq. Oğlum Elçin heç zaman saatlılıyam demədi, horadizliyəm dedi. Hərbi xidmətə Horadiz şəhərindən çağırıldı. Bu tədbir həm də onun və onun yoldaşları üçündü: Horadizi (deməli Vətəni!) sevin, məqamında Horadiz (Vətən) üçün şəhid olmağı da bacarın!..

Bir qrup horadizliyə Müdafiə nazirinin xüsusi mükafatını general-mayor Rasim Əliyev təqdim edir.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin solistlərinin ifasında səslənən mahnılar da, rəqslər də bu qənaətin məntiqi davamıdı, şübhəsiz. Mahnılar da, rəqslər də hamını bir əmrin əsgərinə çevirmək qüdrətindədi. O əmr nə vaxt verilsə, hamını elə bu coşquyla Böyük Qələbəyə səfərbər edəcək!..

Gözdolusu Horadizə baxanlar dirçələn Azərbycanın sabahlarını görür...

Gözdolusu Horadizə baxanlar qüdrətli Azərbaycan Ordusunu görür...

Gözdolusu Horadizə baxanlar ulu öndər Heydər Əliyevin siyasətini görür...

Gözdolusu Horadizə baxanlar işğaldan azad edəcəyimiz ərazilərdə Horadizlik görür...

...Ruhumuzun şəhərisən, şəhərim! Yaxın vaxtlarda işğaldan azad edəcəyimiz şəhərlərin də görkəmində sənin işığını görəcəyik!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Ordu quruculuğu*

# İqtisadi inkişaf, uğurlu islahatlar, güclü ordu



### Ordu quruculuğunda növbəti uğurlu il başa çatmaqdadır

2017-ci ilin başa çatmasına iki aydan bir qədər çox vaxt qalır. Ötən müddətə nəzər saldıqda, təhlillər apardıqda aydın görünür ki, bu il bizim üçün işgüzar, başucalığı gətirən və ordu quruculuğu istiqamətində uğurlu il olub. Bu yaxınlarda keçirilən Nazirlər Kabinetinin iclasında ölkəmizin son doqquz ayda əldə etdiyi uğurlar barədə məlumat verən Prezident, Ali Baş Komandan İlham Əliyev bütün istiqamətlərdə iqtisadi inkişaf prosesinin davam edəcəyini əminliklə bildirib və iqtisadi inkişafımızın göstəricilərini sadalayıb.

Sözün həqiqi mənasında, respublikamızda baş verən iqtisadi inkişaf bütün sahələrlə birlikdə ordu quruculuğuna da müsbət təsirini göstərir. Hərbi qulluqçular hər gün əyani surətdə əmin olurlar ki, ölkəmiz iqtisadi cəhətdən gücləndikcə, hərbi qüdrətimiz də bir o qədər artır, ordumuzun döyüş hazırlığı yüksəlir, hərbi hissələrdə sosial-məişət şəraiti günbəgün daha da yaxşılaşır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, ordu quruculuğu bizim üçün ən başlıca və prioritet məsələ olaraq qalmaqdadır. Görülən bütün işlər də məhz bu prioritet məsələnin əhəmiyyəti nəzərə alınaraq həyata keçirilib. Bu səbəbdən də Silahlı Qüvvələrin bütün istiqamətlərini əhatə edən islahatlar dövlətimizin başçısının birbaşa rəhbərliyi və tapşırığına əsasən 2017-ci ildə də yüksələn templə davam etdirilib. İslahatların kompleks şəkildə, davamlı həyata keçirilməsi Silahlı Qüvvələrimizin aparıcı dövlətlərin orduları səviyyəsinədək yüksəlməsinə imkan verib. Ölkə rəhbərliyinin həyata keçirdiyi iqtisadi islahatlar qısa müddətdə hərbi büdcəmizin 20 dəfədən çox artmasına səbəb olub.

Bu il də ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin təmin edilməsi üçün nəzərdə tutulan xərclər artırılaraq 2,6 milyard manatdan çox təşkil edib. Cari ildə yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir, yüksək dəqiqliyə, geniş ərazidə məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası ordumuzun silahlanmasına qəbul edilib. Bu proses davamlı surətdə, mərhələlərlə hazırda da həyata keçirilir və gələn ildə də davam edəcək.

Son vaxtlar bir neçə xarici ölkəyə səfər edən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Ali Baş Komandanın tapşırığına əsasən, məhz dünyanın qabaqcıl silah, hərbi texnika istehsalçısı olan müəssisələrdə olması və hərbi-texniki sahədə əməkdaşlığa dair sazişlər imzalaması bunları deməyə tam əsas verir.

### Hərbi qulluqçuların yalnız döyüş hazırlığı ilə məşğul olmaları üçün bütün imkanlar yaradılıb

Bu il də Silahlı Qüvvələrin inkişaf proqramı döyüş hazırlığını, hərbi təhsili, tərbiyəvi işi, şəxsi heyətin məişətini və digər sahələri əhatə edib.

Silahlı Qüvvələrin inkişafını müəyyən edən amillərdən biri də şəxsi heyətin bağlaşma əsasında xidmət edən hərbi qulluqçularla komplektləşdirilməsi istiqamətində tədbirlərin davam etməsi olub. Əsas döyüş təminatını müəyyən edən vəzifələrə ixtisaslı mütəxəssislərin və peşəkar hərbi qulluqçuların qəbul edilməsi ordumuzun döyüş hazırlığının yüksəlməsinə müsbət təsirini artıq göstərir. Şəxsi heyətin təsərrüfat işlərindən kənarlaşdırılması, yardımçı təminat sahələrinə mülki işçilərin qəbul edilməsi döyüş hazırlığının optimallaşdırılması istiqamətində atılan ən vacib addımlardan biridir.

Prioritet istiqamətlərdən biri də hərbi qulluqçuların sosial-məişət şəraitlərinin yaxşılaşdırılmasıdır. Dövlətimizin diqqət və qayğısı nəticəsində son illər Bakı, Gəncə və Naxçıvanda mindən çox hərbi qulluqçu daimi mənzillə, ölkənin müxtəlif bölgələrində isə iki mindən çox hərbi qulluqçu xidməti mənzillə təmin olunub.

Silahlı Qüvvələrimizin şəxsi heyətinin əksər hissəsi yeni, müasir komplekslərdə, hərbi şəhərciklərə yerləşdirilib. Qısa müddətdə, xüsusən cəbhəboyu zonada 20-dən çox hərbi şəhərcik tikilərək istifadəyə verilib.

### Modernləşdirilmə Silahlı Qüvvələrin bir çox sahələrini əhatə edir

Ali Baş Komandanın tapşırığına əsasən, modernləşdirilmə artıq bir çox sahələri əhatə edir. Müasir döyüş əməliyyatlarında aviasiyanın və artilleriyanın rolunu nəzərə alaraq, görülən işlər çərçivəsində Hərbi Hava Qüvvələrinin döyüş vasitələrinin, idarəetmə sisteminin təkmilləşdirilərək yüksək texniki standartlar səviyyəsinə çatdırılması, eşelonlaşdırılmış hava hücumundan müdafiə sisteminin yaradılması istiqamətində artıq bir çox işlər yerinə yetirilib və proses daim davam etdirilir. Qısa müddətdə ən müasir texnologiyalar əsasında yeni yaradılan, yaxud əsaslı təmir edilərək yenidən döyüş növbətçiliyinə daxil edilən Qırıcı Aviasiya Bazasının, Radiolokasiya hərbi hissələrini, Birləşmiş Komanda məntəqələrini və müxtəlif bölgələrdə yeni yaradılan hava hücumundan müdafiə komplekslərini misal gətirmək olar ki, bunların hamısı ən müasir avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilib. Görülən işlər aviasiya vasitələrinin qısa müddətdə döyüş vəziyyətinə gətirilməsi, eləcə də istənilən iqlim şəraitində düşmənin hava hədəflərinin fasiləsiz izlənməsini, kəşfiyyat məlumatlarının toplanılması, təhlili, qərarların vaxtında qəbulu, bütün hədəflərin məhv edilməsi və döyüş tapşırıqlarının vaxtında icrasını təmin etmək şəraitini yaradıb.

"İldırım" və modernləşdirilmiş S-125, eləcə də digər zenit-raket komplekslərindən, müxtəlif növ artilleriya qurğularından, aviasiya vasitələrindən döyüş atışlarının həyata keçirilməsi müasir texnoloji avadanlıqla təchiz edilən Azərbaycan Ordusunun döyüş imkanlarını artırıb.

Qürurla qeyd etmək olar ki, həyata keçirilən proseslər hərbi hissələrin komplektləşdirilməsini, kadr siyasətini, hərbi təhsil, döyüş hazırlığı və digər sahələri əhatə edir ki, bu barədə mətbuatda mütəmadi olaraq məlumatlar verilir.

### Müasir silahlandırma düşmən üzərində tam üstünlüyümüzü təmin edib

Azərbaycan Silahlı Qüvvələrinin müasir, uzaqmənzilli, yüksək dəqiqliyə və dağıdıcı qüvvəyə malik minlərlə raketinin bütün Ermənistan ərazisindəki hərbi və müdafiə əhəmiyyətli obyektləri, eləcə də strateji kommunikasiya sistemlərini məhv etməyə qadir olduğunu artıq qarşı tərəfin hərbi-siyasi rəhbərliyi birmənalı olaraq dərk edir. Azərbaycan Ordusu arsenalında olanlardan tam istifadə edərək düşmənə zərbə endirərsə onun faciəsi qaçılmazdır.

Son illər ərzində əldə edilən silah-sursat, hərbi texnika Ermənistan ilə Azərbaycan arasında hərbi sahədəki pariteti bizim xeyrimizə əhəmiyyətli dərəcədə dəyişib. Eyni zamanda, Azərbaycanda hərbi-sənaye kompleksinə aid onlarla müəssisə fəaliyyətə başlayıb. Azərbaycanın Müdafiə və Müdafiə Sənayesi nazirlikləri arasında Silahlı Qüvvələrin yerli istehsalımız olan pilotsuz uçuş aparatları ilə təmin edilməsi barədə anlaşma memorandumunun imzalanması da bu qəbildən olan tədbirlərdəndir. Sənədə əsasən, Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan yüzlərlə yeni növ kamikadze tipli "Zərbə" və kəşfiyyat-müşahidə xarakterli pilotsuz uçuş aparatları (PUA) yaxın vaxtlarda Silahlı Qüvvələrimizin istismarına veriləcək.

Aprel döyüşlərində bu tip PUA-nın nə dərəcədə səmərəli tətbiq olunduğu hamının yadındadır və düşmən tərəfi də bunu təsdiq etdi. Məhz bu səbəbdən əməliyyat və cari şərait də nəzərə alınmaqla ordunun ehtiyaclarını təmin edəcək kifayət qədər PUA-nın əldə edilməsi nəzərdə tutulub.

Heç kimə sirr deyil ki, hərbi zavodlarımızda mindən artıq çeşiddə müdafiə təyinatlı məhsullar istehsal edilir. Eyni zamanda, Azərbaycanın hərbi sənayesinin istehsal etdiklərindən əlavə, regionun xüsusiyyətləri, cəbhəboyu zonadakı şərait və vəziyyət nəzərə alınmaqla, o cümlədən düşmən üzərində daim hərbi üstünlüyü saxlamaq məqsədilə inkişaf etmiş müxtəlif ölkələrdən yeni, müasir və keyfiyyətli döyüş texnikaları, digər hərbi təyinatlı məhsullar ordunun silahlanmasına daxil edilir.

### Aprel döyüşlərindəki qələbəmiz düşmənə bir dərs oldu

Heç şübhəsiz ki, Silahlı Qüvvələrimizdə həyata keçirilən islahatların nə dərəcədə uğurlu olmasına 2016-cı ilin aprelində həyata keçirilən əks-həmlə əməliyyatı əyani sübutdur. Silahlı Qüvvələrimizin bu əməliyyatda əsas hədəfi Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttinə yaxın kəndlərdə yaşayan və düşmən tərəfindən daim atəşə məruz qalan azərbaycanlı dinc əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə erməni hərbi birləşmələrinin atəş nöqtələrini zərərsizləşdirmək idi.

Silahlı Qüvvələrimiz tərəfindən Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yüksəkliklər, yollar və daha çox ərazilər əməliyyat şəraiti baxımından ordumuzun nəzarətinə keçdi. Düşmənin hərbi-siyasi strategiyası iflasa uğradı. Bu hadisələr Ermənistanın hərbi-siyasi rəhbərliyində olan problemləri, boşluqları tam ortaya çıxardı.

Azad edilən ərazilərdə artıq Azərbaycan bayrağı dalğalanır və hər birimizə qürur hissi bəxş edir, qələbəyə inamımızı daha da möhkəmləndirir, bütün ərazilərimizin tezliklə azad ediləcəyinə əminliyimizi gücləndirir.

Aprel döyüşləri zamanı Silahlı Qüvvələrimizin fəaliyyətinə ən böyük qiyməti Prezident, Ali Baş Komandan İlham Əliyev verdi. Dövlətimizin başçısının "Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir" fikri bu qələbəyə verilən ən dolğun qiymətdir.

Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan əsgəri erməni xalqına qarşı deyil, Ermənistanın cinayətkar, kriminal hərbi siyasi rejiminə, əlləri günahsız dinc əhalinin qanına bulaşmış hərbi xuntaya qarşı vuruşaraq işğal altındakı ərazilərimizin azad edilməsinə nail olmaq istəyir.

Aprel döyüşlərindən sonra, ilk növbədə, dünya ictimaiyyəti, vasitəçiliklə məşğul olan beynəlxalq qurumlar, təşkilatlar bir daha əmin oldular ki, Azərbaycan xalqı ərazilərinin işğalda qalması ilə barışmayıb və barışmayacaq. Bu, Ermənistan hakimiyyəti üçün də bir dərs olmalıdır. Uzun müddət davam edən status-kvo tezliklə dəyişməli, münaqişə beynəlxalq hüququn normaları və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Ermənistanda hakimiyyəti terrorla ələ keçirmiş və öz xalqına qənim kəsilmiş şəxslər son illər ərzində yüzlərlə qeyri-adekvat, real vəziyyəti əks etdirməyən və Ermənistan ordusunun gücü, hərbi texnikası barədə absurd bəyanatlarla çıxış ediblər. Bu da təbii ki, təəccübləndirici deyil. Amma onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan Ermənistanla "qızğın silahlanma" yarışına girməyib və belə bir fikir də yoxdur. Çünki Ermənistan iqtisadiyyatı Azərbaycanın imkanları ilə müqayisədə tam zəifdir. Eyni zamanda, hücum silahları ilə yanaşı, hava məkanımızın qorunması, hərbi və mülki obyektlərin, strateji əhəmiyyətli kommunikasiya xətlərinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində də ciddi kompleks tədbirlərin görülməsi zamanın tələbidir və bu istiqamətdə də respublikamızda uğurlu fəaliyyət həyata keçirilir.

Ali Baş Komandanın tapşırığına əsasən, 2018-ci ildə də ordu quruculuğu prioritet sahələrdən biri olaraq qalacaq. Bu gün əminliklə deyə bilərik ki, ən müasir silah-sursat və döyüş vasitələri ilə təchiz edilmiş, yüksək vətənpərvərlik ruhuna malik, mənəvi-psixoloji cəhətdən hazırlıqlı Azərbaycan Ordusu hər bir əmri dərhal və yüksək peşəkarlıqla yerinə yetirməyə hazırdır və qadirdir.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# "El bilir ki, sən mənimsən..."

## Cocuq Mərcanlıda məktəbli oğlanların əksəriyyəti hərbçi olmaq arzusundadır

Əlimə kitab götürüb mütaliə etdiyim gündən Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın şeirlərini həvəslə oxumuşam. Tale elə gətirib ki, bir zaman "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" deyib oxucularına əsl övlad məhəbbəti aşılayan ölməz şairimiz Məmməd Arazla çiyin-çiyinə "Azərbaycan təbiəti" jurnalında işləmişəm. Məmməd müəllim şeirdən, poeziyadan söhbət edəndə həmişə deyərdi ki, əsl şair sadə dildə yazmalıdır ki, hər kəs onu oxuyub dərk edə bilsin. Bu mənada Səməd Vurğunu misal çəkərdi, onun "Azərbaycan" şeirindən danışardı. Doğrudan da, ədəbiyyatımızın ustadlarından olan Səməd Vurğun bu şeiri elə səmimi yaradıb ki, azyaşlı uşaqdan tutmuş qocaya qədər, kimi dindirsən o şeiri əzbərdən deməyi bacarar. Həmişə "Azərbaycan" şeiri səslənəndə qeyri-ixtiyari olaraq ulu öndərimiz Heydər Əliyevi xatırlayıram, çünki dahi rəhbər bir dəfə bu şeiri elə həzin, məlahətli deyib ki, səsi yaddaşlarımıza hopub.

*El bilir ki, sən mənimsən,*
*Yurdum-yuvam, məskənimsən,*
*Anam doğma Vətənimsən,*
*Ayrılarmı könül candan,*
*Azərbaycan, Azərbaycan...*

Cəbhə xəttinə ezamiyyətə gedəndə dövlət rəhbərliyimizin qayğısı ilə yenidən bərpa edilmiş Cocuq Mərcanlı kəndinə yolumu saldım. Yenicə təmirdən çıxmış magistral yolun başlanğıcında "Cəbrayıl rayonu, Cocuq Mərcanlı kəndi" yazılmış lövhəyə gözüm sataşanda qəhər məni boğdu. Çünki ilk dəfə 24 il öncə bu kəndin yanından ötüb Füzuliyə, Cəbrayıla ezamiyyətə getmişdim. Yayın qızmar vaxtıydı, avtobusun pəncərəsindən gah Araza, gah da barlı-bərəkətli taxıl zəmilərinə baxırdım. Birdən nə qədər adamın həyəcanla taxıl sahəsinə qaçdığını gördüm, sən demə bir uşaq ehtiyatsızlıqdan taxıla od salıbmış. Yaxınlıqda isə güllə-mərmi səsləri yeri-göyü lərzəyə salırdı. İndi də o hadisəni xatırlayanda düşünürəm ki, adamların öz əlləri ilə əkib becərdikləri onlara nə qədər şirindir.

Cocuq Mərcanlıya aparan yolun sol hissəsi yenə də başdan-ayağa taxıl zəmiləridir, yenə insanlar doğma torpaqlarında əmin-arxayın əkin-biçinlə məşğuldu, amma bu dəfə onları heç bir qüvvə qorxutmur, çünki torpaqlarımızın keşiyini çəkən qüdrətli ordumuz var.




### "Ulu Öndərimizin ideyaları amalımız, məqsədimizdir"

Cocuq Mərcanlı kənd tam orta məktəbi müasir təhsil müəssisəsi kimi yenidən qurularaq şagirdlərin ixtiyarına verilib. Məktəb Azərbaycan Ordusunun ilk şəhidlərindən olan Novruz Aslanovun adını daşıyır. Neçə illər doğma ocaqlarına həsrət qalmış bir kəndin ziyalıları ilə, məktəbliləri ilə görüşmək, onların səmimi söhbətlərini qələmə almaq məqsədi ilə buraya üz tutmuşam. İlk müsahibim məktəbin direktoru Zamin Həziyevdir.

- Cəmi ikinci aydır ki, ata-baba ocaqlarımızda yenidən məskən salmışıq, kəndimiz gündən-günə böyüyür, genişlənir, yeni-yeni sakinlərini qəbul edir, - Zamin müəllim deyir. - Prezidentimiz cənab İlham Əliyevin bizə göstərdiyi böyük qayğı hər birimizi qurub yaratmağa, həvəslə çalışmağa ruhlandırır. 20 nəfər müəllimdən ibarət pedaqoji kollektivimizin əksəriyyəti doğma kəndimizin sakinləridir, onlar dövlətimizin qayğısından ruhlanaraq gələcəyin qurucularına gərəkli təlim-tərbiyə vermək üçün bütün bacarıqlarını səfərbər edirlər.



Direktorun söhbətinə görə, Cocuq Mərcanlıda həyatın bərpa edilməsi Qarabağımıza, müvəqqəti işğalda olan əzəli yurd yerlərimizə böyük qayıdışın başlanğıcı olmaqla ulu öndərimiz Heydər Əliyevin müdrik siyasətinin gerçək davamıdır. "Həmişə dahi rəhbərimizin müdrikliyini, uzaqgörənliyini düşünəndə belə qənaətə gəlirəm ki, əgər o müstəqilliyimiz yenicə bərpa edilən gündən hakimiyyətdə olsaydı, xalqımız böyük itkilər görməzdi. Heydər Əliyev elə dövlət xadimlərindən biridir ki, hələ neçə illər öncə qəbul etdiyi qərarların hansı nəticələrə səbəb olacağını bilirdi. Sovet dövründə onun respublikaya rəhbərliyi həsabına müasir müstəqilliyimiz üçün əhəmiyyətli olan mühüm islahatlar həyata keçirilmişdi. Görün nə qədər vaxt keçib, amma bu gün də həmin islahatların əhəmiyyətini hiss edirik. Azərbaycanı hədsiz məhəbbətlə qurub yaratmış bir şəxsiyyətin layiqli davamçıları olmaq, onun ideyalarını yaşatmaq amalımız, məqsədimizdir. Biz təhsil işçiləri də fəxr edirik ki, müdrik rəhbərin dövlətçilik strategiyası bu gün etibarlı əllərdədir, dövlət başçımız cənab İlham Əliyev bütün sahələrə olduğu kimi, Azərbaycan təhsilinə də daim diqqət yetirir, gənc nəslin müstəqil bir dövlətin layiqli vətəndaşları kimi yetişməsi naminə əlindən gələni əsirgəmir. Gördüyünüz kimi, yeni istifadəyə verilmiş məktəbimizdə hərtərəfli şərait yaradılıb, neçə gənc həmkarım dövlət rəhbəriyinin uğurlu siyasətindən ruhlanaraq bizim məktəbə könüllü təyinat alıb".

### "Hər kəsdə Vətən sevgisi qədərincə olmasa, layiqli vətəndaş ola bilməz"

Bu fikrin müəllifi isə ömrünün tən yarıdan çoxunu böyüməkdə olan nəslin təlim-tərbiyəsinə sərf etmiş təcrübəli tarix müəllimi İsmət Həziyevdir. İsmət müəllim Bakıda indiki Pedaqoji Universiteti bitirdikdən sonra doğma Cocuq Mərcanlıya təyinat alıb. Onda Sovet dönəmi idi, bu kənd də rahat dövrünü yaşayırdı. İsmət müəllim də onda başqa həmkarları kimi şagirdlərinə sovetlərin siyasətini, xalqlar dostluğunu, beynəlmiləlçiliyi həvəslə təbliğ edərdi. Gənc müəllim heç düşünməzdi ki, dostluğunu tərənnüm etdiyi bir millət onun xalqına qənim kəsiləcək, bəşər tarixində analoqu olmayan Xocalı faciəsini törədəcək. Təcrübəli pedaqoq deyir ki, əslində, belə bir faciəni törətməklə erməni milləti öz acizliyini, qorxaqlığını dünyaya tanıtdı. "Nə qədər qəddar düşmən olsan da, gərək körpəyə, qocaya, qız-gəlinə qıymayasan. Erməni faşistləri guya xalqımızı qorxutmaq üçün bu qətliamı yaratdı, amma düşünmədilər ki, bir yaşayış ocağını məhv etməklə heç nəyə nail olmayacaqlar. Xocalı qırğınından sonra nə qədər peşəkar hərbçimiz Vətənə qayıdaraq müharibəyə yola düşdü. Həmin dövrdə Azərbaycanda rəhbər vəzifədə olanlar dövləti müharibə qanunlarıyla idarə edə bilmədilər. Belə şəraitdən faydalanan Ermənistan isə güclü havadarları hesabına işğalçılıq siyasətini həyata keçirə bildi. 24 il idi ki, biz bu kəndə həsrət qalmışdıq, əslində, Cocuq Mərcanlı 1994-cü ildə Ulu Öndərimizin hakimiyyətə qayıdışından sonra formalaşan ordumuzun ilk uğurlu hərbi əməliyyatı ilə düşməndən azad olunub. Həmin əməliyyatda, Horadiz də daxil olmaqla, 22 kəndimiz geri qaytarıldı. Amma bizim kəndə qayıdışımız mümkün olmadı, çünki yaxın mövqelər düşmənin nəzarətində idi. Bu gün isə dahi rəhbərimizin siyasi kursunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qətiyyəti sayəsində torpaqlarımızın bir hissəsi işğaldan azad edilib. Mən həmişə bu fikirdəyəm



ki, 2016-cı ilin aprel zəfəri Ümummilli Liderimizin yaratdığı ordu quruculuğu strategiyasının yeni bir təntənəsidir".

- Vətənpərvər gəncliyin yetişməsində təhsil işçilərinin də üzərinə böyük məsuliyyət düşür, - deyə təcrübəli pedaqoq söhbətinə davam edir. - Hər kəsdə Vətən sevgisi olmasa, layiqli vətəndaş ola bilməz. Vətənpərvərliyi aşılamaq üçün əlimizdə kifayət qədər imkanlarımız var. Şairlərimizin, yazıçılarımızın, bəstəkarlarımızın bu mövzuda əsərləri var, onları şagirdlərə təbliğ etməliyik. Məsələn, Səməd Vurğunun təkcə "Azərbaycan" şeirini dərindən izah etməklə şagirddə Vətən sevgisini oyatmaq mümkündür. "El bilir ki, sən mənimsən" deyiminin çox güclü mənəvi dəyəri var. Dövrümüzün qəhrəmanlıq nümunələrindən misal gətirməliyik. Elə götürək aprel döyüşlərini. Dövlət başçımızın qeyd etdiyi kimi, bu döyüşlər şanlı qəhrəmanlıq tariximizdir. Hansı fənni tədris etməsindən asılı olmayaraq hər bir müəllim qəhrəmanlığı, vətənpərvərliyi də şagirdinə aşılamağı özünə vətəndaşlıq vəzifəsi hesab edirsə, deməli, vətənpərvər nəsli yetişdirmək çətin deyil.

Söhbətimizə qoşulan məktəb direktoru deyir ki, bölgədə yerləşən hərbi hissə ilə sıx əlaqə yaranıb. "Bütün bayramlarda hərbi hissənin şəxsi heyəti ilə görüşlər keçirməyi qərara almışıq. Sağ olsun komandanlıq, şagirdlərin hərbi bölmələrlə tanışlığına imkan yaradır. Ordu ilə sıx təmas da məktəblilərin vətənpərvərlik tərbiyəsində öz sözünü deyir".

### "Ən başlıca vəzifəmiz Vətənimizi qorumağa hazır olmaqdır"

Direktorun otağında başlanan söhbətimizi siniflərdə şagirdlərlə davam etdirirəm. Şagirdlərdən Azadxan Mirzəliyev, Röyal Həsənov, Samirə Orucova, Nərmin Quluzadə, Baloğlan Aslanov, Sahibə Qəhrəmanova və başqaları fikirlərini bölüşərək ata-baba ocağında təhsil aldıqları üçün Ali Baş Komandanımızın, müzəffər ordumuzun ünvanına ən xoş ürək sözlərini bildirdilər. Əmisi Kamalxan Həsənovun Qarabağ ətrafında gedən ilk döyüşlərdə şəhid olduğunu bildirən Röyalın "Mən də böyüyəndə hərbçi olacam" sözünü qürurla deməsi könlümü sevindirdi. "Başqa kimlər hansı sənəti seçmək arzusundadır?" sualıma yeddi nəfər yeniyetmə oğlan birdən əl qaldıraraq zabit olacaqlarını, Vətəni qorumaq peşəsini seçməyə artıq indidən qərar verdiklərini dedi.

5-ci sinfə daxil oluram. Burada da şagirdlərin əksəriyyəti hesab edir ki, onların ən başlıca vəzifəsi Vətənimizi qorumağa hazır olmaqdır. Dil-ədəbiyyat fənnini tədris edən Xəyalə Mirzəliyeva deyir ki, Cocuq Mərcanlı kəndindən ailəmiz didərgin salınanda 3 yaşım vardı, qayğısız günlərimi yaşayırdım. "Amma böyüdükcə doğulduğum yurdun həsrətini çəkdim. Həmişə anam deyirdi ki, hər kəsin doğulduğu yer onun üçün cənnətdir. Dövlətimizə, ordumuzun əsgər və zabitlərinə minnətdaram ki, bizləri ata-baba ocağımıza qaytardılar. Aprel şəhidlərinin xatirə kompleksi yerləşən ərazi kəndimizə yaxındır, bu abidə ziyarətgahımızdır. Əgər onlar torpaq uğrunda son nəfəsədək döyüşüb fədakarlıq göstərməsəydilər, biz də kəndimizdə indi rahat yaşaya bilməzdik".

Müəllim və məktəblilərlə sağollaşıb həyətə çıxıraq. Kəndin yuxarı tərəfinə baxanda bir məscid diqqətimi çəkir, Şuşa məscidini xatırladır mənə. İsmət müəllim deyir ki, bu məscid düşmənlərimizə ən təsirli mesajdır. Qoy bilsinlər ki, tezliklə Şuşanı da, başqa əraziləri də işğaldan azad edəcəyik!..

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Məktəblilərin iştirakı ilə hərbi hissədə tədbir keçirilib





*Xocavənd rayon orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin iştirakı ilə hərbi hissədə tədbir keçirilib.*

Tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Qonaqlara hərbi hissənin yaranma tarixi, döyüş yolu və fəaliyyəti ilə bağlı məlumat verilib, arsenaldakı silah-sursatlar nümayiş etdirilib.

Şagirdlər hərbi hissənin ərazisi, əsgər yataqxanası, tibb məntəqəsi, idman şəhərciyi, hamam-camaşırxana və əsgər yeməkxanası ilə tanış olub, hərbi qulluqçularla birgə nahar ediblər. Tədbir Xocavənd rayon Mədəniyyət evinin incəsənət ustalarının və hərbi hissənin özfəaliyyət dərnəyinin ifasında vətənpərvərlik mövzusunda konsert proqramı ilə davam edib.

Qonaqlar təşkil olunmuş tədbirə görə Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 25-də Füzuli rayonu Horadiz kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika, Mixail Olaru və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi Aleksandr Nepokrıtıx keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndə Anjey Kasprşik, onun səhra köməkçiləri Oqnyen Yoviç, Martin Şuster və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi Patrik Farrelli keçirəcəklər.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***24 oktyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 103 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Barekamavan kəndlərində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Baş Qərvənd, Abdinli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# ATƏT-in iclasında Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlə bağlı məsələ qaldırılıb

ATƏT-in Daimi Şurasının Vyanada keçirilən növbəti iclasında Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlər barədə məsələ qaldırılıb.

Ölkəmizin ATƏT yanında daimi nümayəndəsi Qalib İsrafilov bildirib ki, ATƏT-ə üzv ölkələrdən, xüsusilə, ABŞ, Kanada və bir sıra Avropa İttifaqı ölkələrindən olan fiziki və hüquqi şəxslər beynəlxalq hüququ pozaraq Azərbaycanın işğal olunmuş ərazilərində iqtisadi və digər fəaliyyətlərlə məşğul olurlar. Erməni mətbu orqanlarının məlumatlarından da bu fəaliyyətlərin xarici özəl qurumlar tərəfindən maliyyələşdirilməsinin davam etdirildiyi görünür.

Azərbaycan diplomatı beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvləri kimi ABŞ, Kanada və Avropa İttifaqı ölkələrini bu fəaliyyətlərə son qoymağa çağırıb. Daimi nümayəndə vurğulayıb ki, işğal edilmiş ərazilərdə həyata keçirilən iqtisadi və digər fəaliyyətlər beynəlxalq hüququn imperativ normalarının pozuntusudur və buna görə də hər bir dövlət bu cür pozuntu nəticəsində yaranmış vəziyyəti tanımamaq, eləcə də bu vəziyyətin davam etdirilməsinə hər hansı formada yardım göstərməmək məsuliyyəti daşıyır. Azərbaycan nümayəndəsi ATƏT-in iştirakçı dövlətlərinə, xüsusilə ABŞ, Kanada və Aİ-nin üzvü olan dövlətlərə özəl sektorun fəaliyyəti zamanı insan hüquqları üzrə beynəlxalq öhdəliklərə əməl edilməsi məsuliyyətini xatırladaraq, onları azərbaycanlı məcburi köçkünlərin işğal edilmiş ərazilərdəki mülkiyyət hüquqlarının pozuntusu olan iqtisadi və digər fəaliyyətə son qoyulması üçün zəruri tədbirlər görməyə çağırıb.

# Ermənistan ordusunun daha 3 hərbi qulluqçusu fərarilik edib

İşğal olunmuş Azərbaycan ərazilərində yerləşdirilən Ermənistan ordusunun daha 3 hərbi qulluqçusu fərarilik edib. Sosial şəbəkələrdə yayılan məlumatda deyilir ki, gənclər işğalçı orduda mövcud problemlər üzündən yaranan dözülməz vəziyyətdən ancaq qaçmaqla canlarını qurtarmaq mümkün olduğunu deyirlər.

Bu günlərdə məlum olub ki, düşmən ordusunun daha 3 hərbi qulluqçusu Samvel Hovanesyan, Narek Alaverdyan və Aşot Qukasyan hərbi xidmət yerindən qaçdıqlarına görə barələrində axtarış elan edilib və cinayət işi açılıb. İstintaq və axtarış tədbirləri həyata keçirilir.

Xatırladaq ki, bir neçə gün bundan qabaq daha iki erməni zabitinin hərbi hissədən qaçaraq xarici ölkəyə getməsi barədə mətbuatda məlumat yayılmışdı.

**İsa ELDAROĞLU**

# Ermənistan yenə də öz təxribatlarını ört-basdır etməyə çalışır

Qorxu və səksəkə içində olan ermənilərin gözünə hər yerdə Azərbaycanın müasir silahları, o cümlədən tank əleyhinə idarəolunan "Spayk" raket kompleksləri görünür.

Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Mətbuat Xidmətinin açıqlamasında qeyd olunub ki, Azərbaycan və Ermənistan prezidentlərinin Cenevrədəki görüşündən qısa müddət sonra ordumuzun əsgərini qətlə yetirən Ermənistan tərəfi cəbhədəki vəziyyətlə bağlı yaydığı iftira dolu növbəti məlumatda öz təxribatlarını ört-basdır etmək və dünya ictimaiyyətinin diqqətini törətdikləri cinayətdən yayındırmaq məqsədini güdür. Aprel hadisələrində Azərbaycan əsgəri düşmənə layiq olduğu yeri göstərdi. İndi də ordumuz arsenalında olan silah və döyüş texnikasını tətbiq etməklə öz gücünü növbəti dəfə sübut etməyə hazırdır.

Leytenant Cəfərquliyev Taleh İlqar oğluna 2015-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 412
Nüsxə 4600